# İstiqlal liderinin məfkurə irsi



**AMEA-nın Naxçıvan Bölməsində "Məhəmməd Əmin Rəsulzadə ictimai xadim və ədəbiyyatşünas kimi" mövzusunda elmi konfrans keçirilib.**

Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, yanvarın 31-də 140 illiyi tamam olan görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin bizə miras qalan ictimai və ədəbi irsi də çox zəngindir. Odur ki, Azərbaycan Prezidentinin "Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında" 30 dekabr 2023-cü il tarixli Sərəncamı onun həyatının həm ictimai-siyasi xadim, həm də ədəbiyyatşünas, yazıçı, publisist kimi daha dərindən araşdırılmasına rəvac verəcək.

Konfransda bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Məhəmməd Əmin Rəsulzadə və mətbuat", Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev "Məhəmməd Əmin Rəsulzadənin ictimai-siyasi fəaliyyəti" və Naxçıvan Bölməsi Aparatının Beynəlxalq əlaqələr şöbəsinin aparıcı mütəxəssisi Mehriban Sultanova "Məhəmməd Əmin Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsəri" adlı məruzələr ediblər. M.Ə.Rəsulzadənin həyatı haqqında geniş məlumat verilib, onun fəaliyyətinin əsas mərhələləri ətraflı şərh olunub. "Şərqi-rus", "İran-nou", "İrşad", "Təkamül", "İqbal", "Açıq söz", "Yeni Kafkasya" kimi qəzet və məcmuələrdə dərc olunan çoxsaylı məqalələrinin mahiyyəti, ideya-məzmun xüsusiyyətləri təhlil edilib. Vurğulanıb ki, M.Ə.Rəsulzadə məqalə, memuar və başqa jarnlarda yazdığı publisistik əsərləri vasitəsilə ideya və düşüncələrini ustalıqla xalqa çatdırmağı bacarmışdır. Gənclərdə milli hisslər formalaşdırmaq amalı ilə başladığı siyasi mübarizlik həyatının 1908–1913-cü illəri əhatə edən İran və Türkiyə dövrü M.Ə.Rəsulzadənin inqilabçı demokrat kimi yetişməsində müstəsna rolu olmuşdur. Gənc Məhəmməd Əmin türkçülük ideyalarının gələcək ideoloqlarından biri kimi püxtələşmişdir.

Məruzələrdə onun dövlət xadimi kimi Azərbaycan xalqı qarşısında xidmətləri, Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyəti, qəbul olunan mühüm tarixi qərarlar, yerinə yetirilən işlər, tarixi torpaqlarımız olan Borçalı və Qarabağla bağlı fikirləri diqqətə çatdırılıb.

Həmçinin M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsərində əksini tapan fikirlər siyasi, tarixi və fəlsəfi baxımdan təhlilə cəlb olunub, əsərin ədəbi-mədəni fikir tariximizdəki roluna nəzər yetirilib. Şərq-Qərb mədəniyyətləri kontekstində Azərbaycanın ümumiləşmiş bədii obrazı olan Səyavuşun dilindən ifadə olunan fikirlər, əsərin ideyası əhatəli şərh edilib.

***XQ***

Xalq qəzeti .- 2024.- 2 fevral, № 27.- S.5.